

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 69 (21.221)

*10 aprel 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Salem Xalifa Mohamed Əl-Ğaflini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin genişləndirilməsində ölkəmizin maraqlı olduğunu deyən Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Səfir Salem Xalifa Mohamed Əl-Ğafli ölkəmizdəki diplomatik fəaliyyəti dövründə səfirliyin işinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi və ikitərəfli əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 9 aprel tarixli Sərəncamı ilə "İnşaatçılar Günü" peşə bayramı münasibətilə və Azərbaycan Respublikasında tikinti kompleksinin inkişafında xidmətlərinə görə bir qrup şəxs "Tərəqqi" medalı ilə təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının inşaatçıları da vardır.

**"Tərəqqi" medalı ilə**

Babayev Nağdəli Həsən oğlu

Bağırov İbadulla Həbib oğlu

Əliyev Şahin Arif oğlu

Məmmədov Asəf Mehdi oğlu

Nəsirov Nəsir Vəzir oğlu

## Naxçıvanda "Azərbaycanın innovativ inkişafı" mövzusunda seminar keçirilmişdir

*Aprelin 9-da Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə "Azərbaycanın innovativ inkişafı" mövzusunda seminar keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov seminarda çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında uzun illərdir, sıx əməkdaşlıq mövcuddur. Bu əməkdaşlıq istər əlavə təhsilin təşkilində, istərsə də müxtəlif mövzularda keçirilən kurslarda muxtar respublikadan dövlət qulluqçularının iştirakı ilə həyata keçirilir. İdarəçilik Akademiyasında bu günədək 82 nəfər əlavə təhsilə göndərilmiş, 144 nəfər isə "Dövlət qulluğunun təşkilati əsasları və dövlətin kadr siyasəti", "Dövlətin sosial siyasəti", "Azərbaycan Respublikasında ailə, qadın və uşaq siyasəti", "Azərbaycan Respublikasının gənclər siyasəti", "Elektron hökumət" olmaqla, ümumilikdə, 18 müxtəlif mövzulu kurslarda iştirak etmişdir. Nəticədə, dövlət qulluqçuları bilik və bacarıqlarını artırmış, Azərbaycanın müasir inkişaf konsepsiyası haqda geniş məlumata malik olmuş və səmərəli idarəetmə metodlarını öyrənmişlər.

Muxtar respublika rəhbərinin İdarəçilik Akademiyası ilə yaradılmış işgüzar əlaqələri daim dəstəklədiyini nəzərə alaraq, əmin ki, əməkdaşlığımız bundan sonra da davam və inkişaf edəcəkdir.



"Azərbaycanın innovativ inkişafı" mövzusunda keçirilən bugünkü seminarın da dövlət qulluqçularının bilik və bacarıqlarının təkmilləşməsində mühüm rolu olacaqdır.

Azər Zeynalov seminarın təşkili ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəhbərliyinə və kollektivinə minnətdarlığını bildirmişdir.

Seminarda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "İnnovativ inkişaf naminə səmərəli idarəetmə: Azərbaycan Respublikasının nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında (2003-2014)" mövzusunda məruzə etmişdir. Bildirilmişdir ki, seminar iştirakçılarına təqdim olunacaq məlumatlara ölkənin heç bir statistik mənbələrində rast gəlmək mümkün deyil. Həmin məlumatlar beynəlxalq təşkilatların rəsmi saytlarında yerləşdirilmiş rəsmi hesabatlardan götürülmüşdür və Azərbaycanın inkişafını özündə əks etdirir. Bu gün insan kapitalının formalaşdırılması, intellektual səviyyəli kadrların yetişdirilməsi mühüm məsələdir. Ona görə də Azərbaycan Respublikasında davamlı insan inkişafının təmin olunması istiqamətində mühüm işlər görülür. Son illər ölkəmizdə müasir standartlara cavab verən müalicə-diaqnostika mərkəzləri tikilib istifadəyə verilmişdir. Bu da insanların sağlamlığının qorunmasında mühüm rol oynayır. Müasir standartlara cavab verən məktəb binalarının tikilməsi, onların müasir avadanlıqlarla təmin edilməsi, kompüterlərin internetə qoşulması bu günün reallığıdır. Bütün bunlar Azərbaycanda insan amilinə göstərilən böyük qayğının nəticəsidir və bu proses Naxçıvan Muxtar Respublikasında daha sürətlə həyata keçirilir.

Urxan Ələkbərov muxtar respublikada hər bir sahədə əldə olunan inkişafı düzgün idarəetmənin təşkili ilə əlaqələndirmiş və bunun ölkənin bir sıra regionları üçün nümunə olduğunu diqqətə çatdırmış, seminarın yüksək səviyyədə təşkilinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

"Azərbaycanın müasir inkişaf konsepsiyası: varislik və innovativlik" mövzusunda məruzə edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov tədbir iştirakçılarının diqqətinə çatdırmışdır ki, ölkəmizdə müəyyənləşdirilmiş idarəetmə strategiyası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Düzgün idarəetmədə başlıca amil olan varisliyin qorunmasının nəticəsidir ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyəti inkişaf etmiş dünya dövlətləri tərəfindən qəbul edilir. Bu siyasəti Naxçıvan Muxtar Respublikasında da görmək mümkündür. Bunun nəticəsidir ki, muxtar respublikada bütün sahələr üzrə yüksək uğurlara nail olunmuşdur. Bunu, ilk olaraq, ümumi daxili məhsul istehsalında görmək mümkündür. "Məndən soruşsalar: innovativ inkişaf nədir? – deyərdim ki, bunu görmək üçün Naxçıvana getmək lazımdır. Naxçıvanda 2014-cü ildə ümumi daxili məhsulun 2,4 milyard manat olması, xarici ticarət dövriyyəsinin getdikcə artması məhz innovativ inkişafın nəticəsidir", – deyən Elman Nəsirov qeyd etmişdir ki, blokada şəraitində olan bir diyarda idxalın 21, ixracın 79 faiz təşkil etməsi çox yüksək nəticədir. Bunların hamısı bir daha onu göstərir ki, Naxçıvanda aparılan islahatlar, idarəetmənin düzgün qurulması, nəticə etibarı ilə, muxtar respublikanın dinamik inkişafına səbəb olmuşdur.

Seminarda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi-təşkilat şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rəcəb Rəhimli "Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində innovativ metodların tətbiqi" mövzusunda məruzə etmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında aparılmış sosioloji sorğunun nəticələrinə diqqəti cəlb edən Rəcəb Rəhimli gələcəkdə belə sorğuların davamlı xarakter alacağını bildirmiş və nəticələr əsasında qiymətləndirmənin aparılmasının təmin ediləcəyini vurğulamışdır.

Sonra mövzu ilə əlaqədar müzakirələr aparılmışdır.

Seminarda şəhər və rayon icra hakimiyyətlərinin, müxtəlif nazirlik, komitə, idarə və təşkilatların nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

## Muxtar respublikanın rabitə və yeni texnologiyalar sistemi hər ötən ay daha da təkmilləşdirilir

Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə xidmətinin göstərilməsi məqsədilə ardıcıl tədbirlər görülür. Belə ki, mart ayı ərzində, ümumilikdə, 261 yeni telefon nömrəsi istismara verilmiş, "Evədək optika" layihəsi üzrə 3 fərdi mənzilə optik kabel xətti çəkilmişdir. Həmçinin Babək rayonunun Vayxır və Yarımca, Şahbuz rayonunun Gömür, Kəngərli rayonunun Yeni Kərki kənd avtomat telefon stansiyalarının hər birində 48 abonentlik genişzolaqlı internet avadanlığı quraşdırılmış, 445 abunəçinin genişzolaqlı internet şəbəkəsinə qoşulması təmin edilmişdir.

İnformasiya cəmiyyətinə sürətlə inteqrasiya edən muxtar respublikada bütün növ ödənişlərin bir mərkəzdən qəbulu təşkil edilir, insanların rahatlığı təmin olunur. Bu səbəbdən son illər poçt şöbələrinin sayı artırılır və fəaliyyəti genişləndirilir. Artıq muxtar respublikanın ucqar kənd yaşayış məntəqələrində də müasir poçt xidmətləri təşkil olunmuşdur. Bu istiqamətdə işlər ötən ay da davam etdirilmiş, Babək rayon Qoşadizə kəndində yeni poçt bölməsi istifadəyə verilmiş, Şərur rayon Cəlilkənd poçt bölməsinə yeni kompüter avadanlıqları qoyularaq şəbəkəyə qoşulmuşdur. Ayın əvvəlində Ordubad rayonunun Düylün kənd avtomat telefon stansiyasından Çənnəb kəndinədək 8 kilometr məsafədə yeraltı fiber-optik kabel xəttinin tikintisinə başlanmışdır. Hazırda bu iş davam etdirilir.

Mart ayında abunəçilərdən 455 min 319 manat elektrik enerjisindən, 1 milyon 161 min 209 manat təbii qazdan istifadə haqları üzrə ödənişlər qəbul olunmuş, 2161 mobil cihazın qeydiyyatı üçün 10 min 920 manat vəsait yığılmışdır. Həmçinin muxtar respublika ərazisində rəqəmli radio yayımına keçidlə bağlı texniki işlər başa çatdırılmış və sınaq yayımına başlanmışdır.

Muxtar respublika rabitəçiləri yeni texnologiyaların tətbiqi və rabitə xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində işləri bundan sonra da davam etdirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Əmək yarmarkasında 39 nəfərə göndəriş verilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən təşkil edilən növbəti əmək yarmarkası Şahbuz rayonunda keçirilib.*



Tədbiri giriş sözü ilə Şahbuz Rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov açaraq əmək yarmarkalarının əhəmiyyətindən danışıb. Qeyd olunub ki, əmək yarmarkalarının keçirilməsində əsas məqsəd işəgötürənlərlə işaxtaran vətəndaşlar arasında qarşılıqlı ünsiyyətin yaradılmasından, işəgötürənlərin qısa vaxt ərzində ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanlar yaratmaqdan, eyni zamanda işaxtaran vətəndaşların boş iş yerləri haqda məlumat almalarına və işlə təmin olunmalarına köməklik göstərilməsindən ibarətdir.

Şahbuz Rayon İcra Hakimiyyətinin nümayəndəsi Cəlal Paşayev çıxışında əmək yarmarkasına hazırlıq dövründə həyata keçirilən təşkilati işlərdən danışıb. Vurğulanıb ki, bu mühüm aktiv məşğulluq tədbiri işəgötürənlərlə işaxtaran vətəndaşların fəal iştirakına geniş imkanlar açır.

İşaxtaran vətəndaş Ruhin Musayev çıxış edərək işaxtaran vətəndaşların ixtisas və peşələrinə uyğun işlə təmin olunmaları, insanların sosial rifahının yaxşılaşdırılması baxımından olduqca əhəmiyyətli olan əmək yarmarkalarının təşkilatçılarına minnətdarlığını bildirib.

Qeyd edək ki, məşğulluq tədbirində işaxtaran vətəndaşlara 12 müəssisədən 141 boş iş yeri təqdim edilib, 39 nəfərə göndəriş verilib.

**Xəbərlər şöbəsi**



10 aprel İnşaatçılar Günüdür

# Muxtar respublikada tikinti-quruculuq işləri geniş vüsət alıb

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli Sərəncamına əsasən, hər il aprelin 10-u ölkəmizdə "İnşaatçılar Günü" kimi qeyd olunur.***



Bu gün ölkəmizdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir. Əsası 1969-cu ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf xətti istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində ölkəmizdə digər sahələrlə yanaşı, tikinti-quruculuq işlərinin də geniş vüsət almasına səbəb olmuşdur. Şəhər, rayon, qəsəbə və kəndlərdə yeni obyektlər istifadəyə verilmiş, əhalinin rifahının yaxşılaşdırılmasına və sosial problemlərinin həllinə xidmət edən infrastruktur sahələri yaradılmışdır. Son illər ölkə Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamları ilə qəbul edilən dövlət proqramlarının uğurlu icrası da iqtisadiyyatın kompleks inkişafına səbəb olmuş, tikinti işlərinin əhatə dairəsi xeyli genişləndirilmişdir. Bu da, nəticə etibarı ilə, yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin aradan qaldırılmasına və əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir.





Son illər Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı quruculuq işləri aparılır, şəhər və rayonlarda müasir binalar tikilir. Bu gün qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirmişdir. Böyük təcrübə sahibi olan Naxçıvan inşaatçıları öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında yerinə yetirirlər. Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni istehsal sahələri, sosial infrastruktur yaradılır, qədim tikililər təmir olunur, müasir kommunikasiya sistemləri yaradılır. Ötən 20 il ərzində muxtar respublikanın yaşayış məntəqələrində aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişmişdir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyini böyük uğurlarla qeyd etdiyimiz 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvana səfəri çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanının və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun inzibati binalarının, Gənclər Mərkəzinin, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının, "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının açılışlarında iştirak etmiş, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşdur. Ölkə başçısı Naxçıvanda aparılan irimiqyaslı tikinti-quruculuq tədbirlərini yüksək qiymətləndirərək demişdir: ***"Son bir il ərzində Naxçıvanda görülən işlərlə tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm".***

Bu gün muxtar respublikada rahat və geniş yollar, yaşıllıqlara qərq olan abad küçələr, müasir şəhərsalma mədəniyyətinin yüksək tələblərinə cavab verən əzəmətli memarlıq kompleksləri inşa olunur. Təkcə ötən il muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 924 milyon 629 min manat həcmində investisiya yönəldilmişdir ki, bunun da 806 milyon 943 min manatı və ya 87,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür. 2014-cü ildə muxtar respublikada tikinti və ya əsaslı təmirdən sonra 296 müxtəlif təyinatlı obyekt istifadəyə verilmişdir.

Ümumiyyətlə, muxtar respublikada elə bir sahə yoxdur ki, orada tikinti-quruculuq işləri həyata keçirilməsin. Son 20 ildə yeni-yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar, hərbi təyinatlı obyektlər istifadəyə verilmişdir. Belə ki, 1995-2014-cü illər ərzində bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş investisiyanın həcmi 5 milyard 748 milyon 322 min manat olmuşdur ki, bunun da 4 milyard 996 milyon 869 min manatdan çoxu tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. Nəticədə, ötən dövrdə 200-dən çoxu ümumtəhsil məktəbi olmaqla, 338 elm və təhsil ocağı, 380 mədəniyyət, 200-dən artıq səhiyyə, 41 idman obyekti, 511 inzibati bina, mənzil təsərrüfatı üzrə 678 obyekt, 377 kommunal infrastruktur obyekti, 162 körpü, əlil, məcburi köçkün, qaçqın və şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 491 fərdi ev, 6337 istehsal, xidmət və digər infrastruktur obyektlər tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bütün bunlar əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşmasına və fərdi yaşayış evlərinin tikintisinin də ilbəil artmasına səbəb olmuşdur. Təkcə 2014-cü ildə əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 365 min 767 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da 1995-ci ildəki müvafiq göstəricidən 22 dəfə çoxdur.



Muxtar respublikada əkinçiliyin geniş yayılması və inkişafı meliorasiya-irriqasiya sistemlərinin davamlı olaraq təkmilləşdirilməsini də zəruri edir. Son illər bu istiqamətdə də ardıcıl tədbirlər həyata keçirilmiş, tutumu 100 milyon kubmetr olan Heydər Əliyev Su Anbarı tikilmiş, 150 milyon kubmetrlik Arpaçay Su Anbarında isə yenidənqurma işləri aparılmışdır. Ötən il isə Uzunoba Su Anbarı əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Nəticədə, muxtar respublikada min hektarlarla yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmiş, suvarma tədbirləri yaxşılaşdırılmışdır. Həmçinin meyvə və tərəvəz məhsullarının ilboyu yüksək keyfiyyətlə saxlanılması və istehlakçılara çatdırılması məqsədilə soyuducu anbarların tikintisi də diqqət mərkəzində saxlanılır. Hazırda muxtar respublikada ümumi tutumu 12 min 250 ton olan 20 soyuducu anbar vardır.

Blokadanın yaratdığı problemlərdən biri də enerji resurslarına çıxış imkanlarının məhdud olmasıdır. 1995-ci ildən sonra bu sahədə intensiv tədbirlər həyata keçirilmiş, infrastruktur müasir standartlar səviyyəsində yenilənmişdir. Əgər 20 il bundan əvvəl muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, aparılan məqsədyönlü islahatlar və tikinti-quruculuq işləri nəticəsində bu müəssisələrin sayı hazırda 7-yə çatdırılmışdır. Son illər ərzində ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan su elektrik stansiyası, Gilançay üzərində 22 meqavatlıq Biləv Su Elektrik Stansiyası, 20,5 meqavatlıq "Arpaçay-1" və 1,4 meqavatlıq "Arpaçay-2" Su Elektrik stansiyaları tikilərək, ümumi gücü 60 meqavat olan Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası isə yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda Ordubad rayonunda gücü 36 meqavat olan derivasiyatipli su elektrik stansiyasının tikintisi davam etdirilir.

Müasir yol-nəqliyyat infrastrukturu dövlətin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. Muxtar respublikada avtomobil yollarının bərpası və yenidən qurulması, yeni yol şəbəkələrinin salınması istiqamətində ardıcıl tədbirlər görülür. 2010-cu ildə 88 kilometrlik Naxçıvan-Sədərək, 2012-ci ildə 32 kilometr uzunluğunda Naxçıvan-Culfa avtomobil yolu və bu yolları birləşdirən 8 kilometrdən artıq uzunluğa malik Naxçıvan şəhər dairəvi avtomobil yolu, 2014-cü ildə 88,8 kilometrlik Naxçıvan-Şahbuz-Batabat, 25,6 kilometr uzunluğunda Naxçıvan-Vayxır-Sirab avtomobil yolları yenidən qurularaq istifadəyə verilmişdir. Ötən il muxtar respublikada 73 kilometr uzunluğunda asfalt yol salınmış, yenidən qurulmuş və ya təmir edilmiş, 57 paqonometrlik 5 körpü tikilərək istismara verilmişdir. Ölkə Prezidentinin 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən, Babək rayonunda 31 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması işləri davam etdirilir.



İnkişafa töhfəsini verən inşaatçıların əməyi yüksək qiymətləndirilir. "Muxtariyyət ili"ndə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 5 nəfər Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 7 nəfər "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşdur. Bu il isə 5 nəfər "Tərəqqi" medalı ilə təltif edilmiş, 1 memar Naxçıvan Muxtar Respublika Mükafatının qalibi olmuşdur.

*Hər il olduğu kimi, bu il də muxtar respublika inşaatçıları əzmlə çalışacaq, doğma diyarın quruculuq xəritəsinin genişlənməsinə öz töhfələrini verəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat xidməti***

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**
***Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir. Bu istiqamətdə Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.***

# Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası ötən 20 ildə böyük inkişaf yolu keçmişdir



***1995-ci il aprelin 10-da Daxili Qoşunların Naxçıvanda "N" saylı əməliyyat taboru yaradılmışdır. Ötən 20 ildə hərtərəfli inkişaf yolu keçən tabor alaya, sonra isə əlahiddə əməliyyat briqadasına çevrilmiş, muxtar respublikada ictimai sabitliyin qorunmasında müstəsna rol oynamışdır.***

Müstəqillik xalqımızın ən böyük milli sərvətidir. Ötən əsrin 90-cı illərində Azərbaycan xalqı da öz dövlət müstəqilliyini bərqərar etdi. Lakin o illərdə ölkədə baş verən ictimai-siyasi hadisələr, özbaşınalıq və anarxiya, o cümlədən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü yenicə qazanılmış müstəqilliyi itirmək təhlükəsi yaratmışdı. Belə bir dövrdə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə sabitlik və təhlükəsizliyin təmin edilməsi üçün mühüm qərarlar vermiş, milli ordu quruculuğuna başlanılmış, Azərbaycan sürətli inkişaf yoluna qədəm qoymuşdur. Dahi şəxsiyyətin rəhbərliyi ilə daxili işlər orqanları da hərtərəfli təşkilatlanma yolu keçmiş, daxili qoşunlar yaradılmış, sabitlik təmin olunmuşdur.

Ulu öndərin inkişaf strategiyasını və ordu quruculuğu siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Daxili Qoşunların təkmilləşdirilməsi istiqamətində də əhəmiyyətli tədbirlər həyata keçirilir. ***"Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir. Bu istiqamətdə Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir",*** – deyən ölkə Prezidentinin rəhbərliyi ilə bu sahənin maddi-texniki bazası getdikcə daha da gücləndirilir. Dövlət başçısının 2014-cü il 24 sentyabr tarixli Sərəncamı ilə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının yaradılması da bu istiqamətdə atılmış ən mühüm addımlardandır.

Daxili Qoşunların Naxçıvanda yerləşən Əlahiddə Əməliyyat Briqadası ötən dövrdə inkişaf edərək yüksək döyüş hazırlığına malik peşəkar bir quruma çevrilmişdir. Bu gün Naxçıvanda Daxili Qoşunların fəaliyyətinin təşkili, idarə olunması və şəxsi heyətin həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə ötən dövrdə briqadanın maddi-texniki bazası xeyli möhkəmləndirilmişdir. Daxili Qoşunlarda aparılan islahatlar, döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminat və hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması qarşıya qoyulan xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.

Yüksək mənəvi-psixoloji hazırlığa nail olunmadan hərbi xidməti düzgün təşkil etmək mümkün deyil. Buna görə də şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Ötən illərdə briqadanın ərazisində müasir standartlara uyğun yaşayış binaları və digər sosial məişət obyektləri inşa olunmuşdur. 2011-ci ildən başlayaraq zabit-gizir ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə 60 mənzildən ibarət 5 mərtəbəli, 12 mənzildən ibarət 3 mərtəbəli yaşayış binası istifadəyə verilmişdir. 2012-ci ildən inşasına başlanılan daha bir 5 mərtəbəli yaşayış binası isə istifadəyə hazırdır. Həmçinin briqadanın Şərur rayonunda yerləşən əməliyyat taboru üçün xidməti və yaşayış binalarının tikintisi də davam etdirilir.



Bu gün Daxili Qoşunların Naxçıvanda yerləşən Əlahiddə Əməliyyat Briqadasında ciddi nizam-intizam vardır. Cəmiyyətin və dövlətin mənafeyinin, habelə ictimai asayişin mühafizəsində daim sayıqlıq nümayiş olunur, əsgər və zabitlər üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Şəxsi heyət qarşıya qoyulmuş tapşırıqları operativ yerinə yetirir. Hazırlığın yüksək səviyyədə saxlanması ictimai təhlükəsizliyin təmin edilməsində, eləcə də xüsusi əməliyyatlarda şəxsi heyətin böyük təcrübələr qazanmasına şərait yaradır. Şəxsi heyətin yeni silahlardan istifadə qaydaları üzrə bilik və bacarığı təkmilləşdirilir, müntəzəm olaraq metodik təlim toplantıları, səhra çıxışları və döyüş atışlı taktiki təlimlər keçirilir. Həyata keçirilən bu tədbirlər öz bəhrəsini verir, keçirilən birgə taktiki təlimlərdə qoşunların şəxsi heyəti əsl peşəkarlıq göstərir.

Daxili Qoşunların Naxçıvanda yerləşən Əlahiddə Əməliyyat Briqadası zabitlərinin xidməti fəaliyyəti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Bu il 1 hərbi qulluqçu "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Daxili Qoşunlar ölkəmizdə, eləcə də muxtar respublikamızda daxili intizam tədbirlərini yerinə yetirməklə yanaşı, lazım gələrsə, ərazi bütövlüyümüzün qorunmasında da yaxından iştirak etməlidirlər. Bunun üçün hərtərəfli şərait yaradılmış, hərbi hissələr lazımi avadanlıqlar, silah-sursat və döyüş texnikaları ilə təmin edilmişdir. Hər bir əsgər və zabit öz vəzifə borclarını dərindən bilməli, silah və texnikalardan istifadə imkanlarını yaxşı mənimsəməlidir".***

Daxili Qoşunların Naxçıvanda yerləşən Əlahiddə Əməliyyat Briqadasının şəxsi heyəti bundan sonra da cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarının və azadlıqlarının qorunması, mühüm dövlət obyektlərinin mühafizəsi, ictimai asayişin və təhlükəsizliyin təmin olunması sahəsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, muxtar respublikada sabitliyin keşiyində ayıq-sayıq dayanacaqdır.

**"Şərq qapısı"**

***Son illərdə muxtar respublikamızda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Sevindirici haldır ki, dövlət orqanlarının əksəriyyətində əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər insanların qarşılaşa biləcəyi bürokratik əngəlləri, vaxt itkisini, eləcə də digər çətinlikləri aradan qaldırıb.***

# Səyyar xidmətlər əhalinin rahatlığının təmin olunmasına hesablanıb




Fevralın 9-da 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə muxtar respublika rəhbəri tərəfindən Daxili İşlər Nazirliyinə və Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə əhaliyə müvafiq xidmətlərin səyyar qaydada həyata keçirilməsinin təmin edilməsi haqda verilən tapşırıq doğma diyarımızda dövlət-vətəndaş münasibətlərində yeni mərhələnin başlanğıcını qoyub. Bu addım qədirbilən muxtar respublika sakinləri tərəfindən yeni fikrin, yeni yanaşmanın təcəllisi, əhaliyə göstərilən ictimai xidmətlər sahəsində atılan uğurlu addım, dövlətimizin öz vətəndaşına, bütövlükdə, insan amilinə verdiyi dəyərin təzahürü kimi qiymətləndirilir. Tapşırıqdan sonrakı müddətdə müvafiq tədbirlər həyata keçirilib, maddi-texniki baza yaradılıb, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə "Hyundai", Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə "NAZ-Lifan-6401" markalı avtomobillər verilib. Avtomobillər xidmət sahələrinə uyğun olaraq, səyyar xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib.

Sözügedən müşavirədən sonra Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən səyyar qaydada yerlərdə əhaliyə daşınmaz əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı və digər xidmətlər göstərilir. Səyyar xidmət zamanı əvvəlcə vətəndaşların ərizələri qəbul olunur və məlumat bazası üzrə uyğunluğu yoxlanılır. Bundan sonra qəbul edilmiş sənədlər rayon şöbələri tərəfindən elektron sistemə salınaraq təsdiq üçün xidmətin mərkəzi aparatına göndərilir. Burada daşınmaz əmlak dövlət reyestrində qeydiyyata alınaraq çıxarış hazırlanır, kağız və elektron variantlarda arxiv yaradılır. Bütün bu proseslər tamamlandıqdan sonra hazırlanan sənədlər vətəndaşlara çatdırılır.

Ötən günlərdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobilinin növbəti dayanacağı Kəngərli rayonunun Qarabağlar kəndi oldu. Nazirliyin əməkdaşı, polis baş leytenantı Seymur Tağıyevlə söhbətimizdə bildirdi ki, burada vətəndaşlara 5 hüquqi xidmət – ümumvətəndaş pasportunun və şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, eləcə də ov silahlarının qeydiyyata alınması üzrə xidmətlər göstərilir. Çalışırıq ki, yerlərdə vətəndaşların müraciətlərini operativ şəkildə cavablandıraq, onların vaxta qənaət etmələrinə şərait yaradaq.

Qarabağlar kənd sakini İlham Əsgərov səyyar xidmətə övladlarına şəxsiyyət vəsiqəsi almaq üçün müraciət edib. Deyir ki, xidmət vasitəsilə vəsiqələrin çıxarılması üçün lazım olan sənədləri qısa vaxt ərzində elə yaxınlıqdakı kənd mərkəzində fəaliyyət göstərən inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən əldə edib, burada təşkil olunan Kəngərli Rayon Mərkəzi Xəstəxanası briqadası tərəfindən tibbi arayışla təmin olunub. Şəxsiyyət vəsiqəsi üçün lazım olan fotoşəkillər də elə kənd mərkəzində təşkil edilən studiyada çəkilib. Bu da onun işini xeyli asanlaşdırıb. Daxili İşlər Nazirliyinin səyyar xidmətinin qeydiyyat və şəxsiyyət vəsiqələri qrupunun əməkdaşları sənədlərin toplanmasına və işlənməsinə böyük həssaslıqla yanaşıblar və bildiriblər ki, qısa müddətdə o, övladlarının şəxsiyyət vəsiqəsini Naxçıvan şəhərinə getmədən elə öz kəndində ala biləcək. Bütün bu görülən işlər dövlətimizin öz vətəndaşlarının qayğısına qalmasından xəbər verir. Buna görə dövlətimizə minnətdarıq.

Kəndin daha bir sakini Samirə Məmmədova da səyyar xidmətdən razılıq edir və deyir ki, əvvəllər şəxsiyyət vəsiqəsi almaq və ya dəyişdirmək üçün Naxçıvan şəhərinə getmək lazım gəlirdi. Mart ayında elə sizin qəzet vasitəsilə mənə məlum oldu ki, daha mənim və mənim kimi çox sayda kənd sakinlərinin Naxçıvan şəhərinə və rayon mərkəzinə getmələrinə, dövlət orqanının qapısını döymələrinə ehtiyac qalmayıb. Əksinə, həmin orqan öz vətəndaşının, yəni biz kənd sakinlərinin qapısını döyəcək, bizim müraciətlərimiz qısa zamanda həllini tapacaq. Dövlətimiz tərəfindən atılan bu addıma görə minnətdaram və haqlı qürur hissi keçirirəm.

Xidmətə müraciət edən Qarabağlar kənd sakinlərindən Musa Hatəmov da sevincini bizimlə bölüşür və deyir ki, şəxsiyyət vəsiqəni vaxt itirmədən və rahat şəkildə alıb. Xidmət yüksək səviyyədə təşkil olunub. Üstün cəhətlərdən biri isə odur ki, insan nəyisə bilməyəndə çox gözəl izah edirlər, onu məlumatlandırırlar. Bu xidmətin göstərilməsinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımızı bildiririk.

Səyyar xidmətin daha bir nümayəndəsi Mahir Məmmədovla söhbətimizdə, bütün sənədlər kimi, pasportların verilməsində də operativlik, dəqiqlik prinsiplərinin əsas götürüldüyünü dedi. Qeyd etdi ki, səyyar xidmət zamanı əhalinin getgələ salınmasından söhbət gedə bilməz. Sənədlərin hər biri yerindədirsə, məsələni dərhal həll edirik, qısa müddət ərzində hər şey yoluna qoyulur.

Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə də səyyar xidmətlə bağlı qızğın iş gedirdi. Kəndin icra nümayəndəsi Seyfəddin Tağıyev deyir ki, hər kəsin rahat şəkildə öz arayışını və ya sənədini alıb razılıqla getməsi üçün bütün qüvvələri səfərbər etmişik. Kəndimizdə fəaliyyət göstərən səyyar xidmət sakinlərin uzaq məsafə qət etmədən, əziyyət çəkmədən, rahat şəkildə sənədləşmə işlərini aparmalarına imkan yaradıb. Çalışırıq ki, səyyar xidmət tərəfindən sakinlərdən tələb olunan sənədləri qısa vaxt ərzində insanlar üçün hazır edək.

Sonda onu qeyd etmək istərdik ki, səyyar xidmətlərin təşkilinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffafluğın təmin edilməsi, müasir texnologiyaların tətbiq olunması, dövlət məmuru-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – "dövlət məmurunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasıdır. Operativlik, şəffaflıq, nəzakətlilik və məsuliyyət prinsipləri əsasında əhaliyə səyyar xidmətlərin göstərilməsi muxtar respublika sakinlərinin dövlət qayğısı ilə tam əhatə olunmalarına hədəflənib və dövlət-vətəndaş münasibətləri sahəsində mütərəqqi, təqdirolunası hadisədir.

**✍ Səbuhi HÜSEYNOV**

## Şahmat üzrə rayon birinciliyinin ilk zona yarışı

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Culfa rayon ümumtəhsil məktəblərinin I-V, VI-XI sinif şagirdləri (həm oğlan, həm də qızlar) arasında 3 mərhələdən ibarət olan şahmat üzrə birinciliyə start verilib.*

Culfa Rayon İcra Hakimiyyətinin tədbirlər planına uyğun olaraq, Təhsil Şöbəsinin, Uşaq-gənclər şahmat idman məktəbinin, Gənclər və İdman İdarəsinin, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının rayon bölməsinin təşkilatçılığı ilə keçirilən şahmat birinciliyinin ilk mərhələsi məktəblərdaxili olub. Bu yarışda 4800 şagird öz intellekt səviyyəsini nümayiş etdirib.

İkinci mərhələ isə zonalar üzrə keçirilib. Rayonun bütün məktəblərinin qatıldığı zona birinciliyi, ilk olaraq, Bənəniyar kənd tam orta məktəbində təşkil olunub. Zona birinciliyində Camaldın, Ərəzin, Qızılca, Əbrəqunus, Bənəniyar, Kırna, Saltaq və Göydərə kənd tam orta məktəblərinin şagirdləri iştirak ediblər.

Yarışdan öncə Culfa Rayon Təhsil Şöbəsinin müdiri Adəm Qasımov, Uşaq-gənclər şahmat idman məktəbinin direktoru Hüseyn Tağıyev, Gənclər və İdman İdarəsinin rəisi Ümid Həsənli çıxış edərək muxtar respublikamızda şahmatın kütləviləşməsi üçün həyata keçirilən tədbirlərdən, şagirdlərin şahmat ustalığının artırılmasında və təcrübələrinin təkmilləşdirilməsində bu yarışların əhəmiyyətindən, bu cür yarışlar nəticəsində şagirdlər arasında dostluq və şahmat-idman əlaqələrinin möhkəmləndirilməsindən danışıblar.

İsveçrə sistemi üzrə keçirilən birincilikdə müxtəlif yaş qrupları üzrə oğlan və qızların hər biri ayrılıqda mübarizə aparıblar. Nəticədə, I-V siniflərin oğlanları arasında Məhəmməd Nəzərli (Qızılca) birinci, Aslan Həmidli (Bənəniyar) ikinci, Uğur İbrahimov (Ərəzin) üçüncü; qızlar arasında isə Duyğu Qafarova (Ərəzin) birinci, Sevinc Novruzlu (Qızılca) ikinci, Nurgül Əhmədova (Camaldın) üçüncü yerlərə sahib olublar.

VI-XI siniflərin oğlan şagirdlərindən Təbriz Həsənli (Əbrəqunus) birinci, Turqut Hacıyev (Bənəniyar) ikinci, Nəriman Muradov üçüncü; qızlardan Gülgəz Məhərrəmli (Camaldın) birinci, Həcər Seyidova (Bənəniyar) ikinci, İnci Nəzərli (Qızılca) üçüncü yerləri qazanıblar.

Qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib.

Qeyd edək ki, mükafatçılar rayon birinciliyində iştirak edəcəklər.

*İdman icmalı*

## Mart ayında təşkil olunan yarış və turnirlərdə 1500-ə yaxın idmançı iştirak edib





***İdman ictimai həyatın mühüm sahəsidir. Artıq Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır. Bu, həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsidir. Bir tərəfdən mövcud idman qurğuları yenidən qurulur, yaxud yeniləri inşa edilir, idmançılar hərtərəfli qayğı ilə əhatə olunur ki, bu da beynəlxalq turnirlərdə daha böyük uğurlar əldə etməyə imkan verir.***

Digər tərəfdən isə Azərbaycan qitə və dünya miqyaslı idman yarışlarına ev sahibliyi etməklə gücünü bir daha sübut edir. Tikilən idman qurğuları, sosial infrastrukturun yeniləşməsi sosialyönümlü tədbirlərdəndir ki, bu da Naxçıvan Muxtar Respublikasında idman potensialının güclənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Hər ay keçirilən tədbirlərin sayının artması, idmançıların üzə çıxarılması onların idmanla məşğul olmaları ilə yanaşı, həm də sosial həyatlarına müsbət təsir göstərir.

***Fərdi və ya kollektiv idman, bir məqsəd və uğur***

Mart ayında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, rayon idman idarələri və muxtar respublikada fəaliyyət göstərən federasiyalar bir çox yarışlar, turnirlər, birinciliklər təşkil ediblər. Geridə qoyduğumuz ay daha çox muxtar respublika idmanında 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr edilmiş yarışlarla yadda qaldı. İlk belə turnir Şərur Olimpiya-İdman Kompleksində baş tutdu. Gənc, perspektivli boksçuların üzə çıxarılması məqsədilə keçirilən yarışda Şərur və Sədərəyin dəri əlcək sahibləri rinqdə güclərini nümayiş etdirdilər.

Şərq Döyüşü Sənəti Federasiyası isə Gənclər və İdman Nazirliyi ilə birgə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində kikboksinq üzrə Naxçıvan şəhər açıq birinciliyi təşkil etdi. 100-ə yaxın idmançının mübarizə apardığı birinciliyin final qarşılaşmaları xüsusi marağa səbəb oldu. Federasiya həmçinin ötən ay da rayonlarda keçirdikləri tədbirləri təxirə salmadı. Mart ayının son günlərində nazirliklə birgə Babək rayonunda 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş kikboksinq üzrə muxtar respublika birinciliyi keçirdi.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası, Yüngül Atletika Federasiyası, Hava və Ekstremal İdman Növləri Federasiyası və Basketbol Federasiyası nazirliyin tədbirlər planına uyğun olaraq, mart ayında Bədən Tərbiyəsi və İdman Gününə həsr edilmiş turnirlər təşkil etməklə bu idman növlərinin inkişaf etdirilməsinə öz töhfələrini verməyə çalışırdılar. Bu yarışlarda 400-ə yaxın gənc idmançı qüvvəsini sınayıb.

Geridə qoyduğumuz ayı Basketbol Federasiyası üçün tarixi ay kimi dəyərləndirmək olar. Federasiya Gənclər və İdman Nazirliyi ilə birgə ilk dəfə olaraq dairəvi sistem üzrə basketbol üzrə Naxçıvan Muxtar Respublika çempionatına start verdi.

Fərdi idman növlərindən şahmatın kütləvi hal alması üçün Şahmat Federasiyası və Gənclər və İdman Nazirliyi mütəmadi olaraq şəhər və rayonlarda yarışlar təşkil edir. Mart ayında belə yarışlardan biri də Naxçıvan Şahmat Mərkəzində keçirildi. Naxçıvan şəhər məktəblilərinin komanda birinciliyində 100-ə yaxın şagird zəkasını sınadı. Həmçinin geridə qoyduğumuz ay Sədərək və Kəngərli rayonlarında da belə turnirlər təşkil edilib ki, yarışlarda 50-dən çox idmançı mübarizə aparıb.

Daim diqqət mərkəzində saxlanılan və dövlət qayğısı ilə əhatə olunan fiziki imkanları məhdud uşaqlar arasında keçirilən 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunan yaxşı xalq oyununun yarışını xüsusi qeyd etmək lazımdır. 4 komanda və 16 paralimpiyaçının iştirakı ilə təşkil olunan yarışda idmançıların peşəkarlığı diqqətdən yayınmadı.

Kollektiv idman növlərindən olan Voleybol və Futbol federasiyaları mart ayında tədbirlər planına uyğun olaraq, bir çox yarış və yoldaşlıq görüşləri təşkil ediblər. Bu tədbirlərin xüsusilə rayonlarda təşkil olunması təqdirəlayiqdir. Ümumtəhsil məktəblərinin qız komandaları arasında voleybol üzrə Naxçıvan şəhər birinciliyi, həmçinin Naxçıvan şəhəri, Culfa və Şahbuz rayonlarında keçirilən yoldaşlıq görüşləri diqqətdən yayınmayıb.

Futbol Federasiyası isə Naxçıvan Muxtar Respublika çempionatı təşkil etməklə yanaşı, eyni zamanda yoldaşlıq oyunları keçirəcək rayonlarda bu idmana marağı artırmağa çalışıb. Mart ayı ərzində federasiya Babək Rayon Gənclər və İdman İdarəsi ilə birgə gənclərin asudə vaxtlarının təşkili, rayonun qəsəbə və kəndləri arasında idman əlaqələrinin inkişaf etdirilməsi və idmanın kütləviliyinin təmin edilməsi məqsədilə futbol üzrə yoldaşlıq görüşləri təşkil edib. Kollektiv idman yarışlarının daim diqqətdə saxlanması, həmçinin fərdi növlər üzrə turnirlərin mütəmadi olaraq təşkil edilməsi gənclərin bu sahəyə axınını da sürətləndirib. Belə ki, mart ayında təşkil olunan yarış və turnirlərdə 1500-ə yaxın yeniyetmə və gənc idmançı iştirak edib.

Geridə qoyduğumuz ayda boksçumuz Tayfur Əliyevin İtaliyanın Assisi şəhərinə Azərbaycan yığması ilə birlikdə yollanması və orda keçirilən bütün sparrinq döyüşlərində qalib gəlməsi onun "Bakı-2015" Avropa Oyunlarına tam hazır vəziyyətdə olmasının göstəricisidir. Həmçinin Hövsan Olimpiya-İdman Kompleksində 5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar Azərbaycan Çoxmübarizəli İdman Döyüş Növləri Federasiyasının açıq birinciliyində Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi Yunis Hüseynəliyev (90 kq) iştirak edib və gümüş medal qazanıb.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində növbəti açıq ürək əməliyyatları aparılıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir. Bu sahədə Azərbaycan Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanası ilə qarşılıqlı əməkdaşlıq artıq ənənə halını alıb. Heyət əvvəllər Naxçıvana müəyyən vaxt ərzində gəlirdi, indi isə açıq ürək əməliyyatına zərurət yarandıqda dəvət olunur. Artıq bu il Mərkəzi Neftçilər Xəstəxanası Ürək-damar xəstəlikləri şöbəsinin heyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə yanvar ayında 15 nəfərdə müayinə, 7 nəfərdə açıq ürək, fevral ayında 19 nəfərdə müayinə, 10 nəfərdə açıq ürək və mart ayında 20 nəfərdə müayinə, 8 nəfərdə açıq ürək əməliyyatı aparıb.

Kardiocərrah Seymur Musayevin rəhbərliyi ilə aprel ayında dördüncü dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində olan heyət əvvəlcədən qeydiyyata götürülmüş risk faktorlu xəstələri müxtəlif kardioloji müayinələrdən keçirib, kardioloji ambulator müayinə və müalicələr zamanı xəstələrə tibbi məsləhət və tövsiyələr verilib. 10 nəfər kardioloji xəstə üzərində isə açıq ürək-aortakoronar şuntlama, fallotetradasının korreksiyası, botal axacağın bağlanması kimi mürəkkəb əməliyyatlar aparıb. Xəstələr bir neçə günlük həkim nəzarətindən sonra tam sağalma ilə evə buraxılıblar. Heyət xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırıb, ürək xəstəliyi aşkarlanan xəstələrin sonrakı müayinə və müalicələrini diqqət mərkəzində saxlayıb.

Cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimləri ilə yanaşı, əməliyyat, reanimasiya, palata tibb bacıları da yaxından iştirak ediblər.

## Şagirdlər arasında yaz mövsümünün kompleks tibbi müayinələrinə başlanılıb

Son illər uşaqların, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicələrinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan dərin tibbi yoxlamalar aparılır. Ötən il payız mövsümünün kütləvi profilaktik müayinələri muxtar respublikanın bütün təhsil müəssisələrini əhatə edib, 43 min 589 uşaq kompleks tibbi müayinədən keçib, 4 min 73 uşaq göz, stomatoloji, nevroloji, cərrahi, dəri-zöhrəvi və digər xəstəliklərin ilkin əlamətlərinə görə əlavə və təkrar yoxlanmalar üçün xəstəxanaya – stasionara dəvət edilib. Sonrakı mərhələdə müayinələr zamanı ehtiyac olan hallarda xəstə uşaqların daha yüksəkixtisaslı mütəxəssis həkimlər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq və sair) tərəfindən konsultasiyası, zəruri hallarda isə stasionar müalicəsi təşkil olunub.

Aprel ayının 6-dan isə şagirdlər arasında yaz mövsümünün dərin tibbi yoxlamalarına start verilib. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən Naxçıvan şəhərindəki məktəblərdə müayinənin təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunub, məktəblərdə işləyən həkim və tibb bacıları xəstəxananın Poliklinika şöbəsinə dəvət edilərək keçiriləcək tədbir, xüsusən dispanserizasiya haqqında təlimatlandırılıblar.

LOR, oftalmoloq, endokrinoloq, nevropatoloq, cərrah, pediatr, stomatoloq, dermatoloq, ortoped və digər ixtisaslı mütəxəssislərdən təşkil olunmuş həkim briqadası 1 və 2 nömrəli tam orta məktəblərdə, eləcə də Qızlar Liseyində dərin tibbi yoxlamalar aparıb. 910 məktəbli profilaktik müayinələrə cəlb edilib. Xəstəliyə meyilli uşaqlar dispanser qeydiyyatına götürülərək göstəriş əsasında stasionar müalicəyə göndərilir.

Tam orta məktəblərin şagirdləri arasında yaz mövsümünün dərin tibbi yoxlamaları aprelin sonunadək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ümumrespublika olimpiadasında Naxçıvan Dövlət Universitetinin komandası finala vəsiqə qazanıb

Bakı şəhərində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Heydər Əliyev Fondunun, Təhsil Nazirliyinin və AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə 17 may – Dünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunan ali məktəb tələbələri arasında informatika üzrə ümumrespublika olimpiadası keçirilib. Naxçıvan Dövlət Universitetinin (NDU) komandası da həmin olimpiadaya qatılıb.

Qafqaz Universitetində olimpiadanın 1-ci mərhələsi keçirilib. Hər təhsil müəssisəsindən maksimum 5 komandanın iştirak edə biləcəyi olimpiadada NDU-nu 1 komanda təmsil edib. İlkin mərhələdə respublikanın 17 ali təhsil müəssisəsindən 66 komandanın iştirakı ilə keçirilən olimpiadanın birinci mərhələsindən uğurla çıxış edən Naxçıvan Dövlət Universitetinin komandası final mərhələsinə vəsiqə qazanıb. "NDU" komandası müasir informasiya-kommunikasiya texnologiyalarının mənimsənilməsi və tətbiqi, informatika sahəsində nəzəri bilik səviyyəsi üzrə fərqlənərək finala çıxıb.

Qeyd edək ki, final mərhələsi AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda keçiriləcəkdir.

**Mina QASIMOVA**

### İtmişdir

Babək rayonunun Aşağı Buzqov kənd sakini Hacıyev Qorxmaz Məmməd oğlunun adına olan JN-088A inventar nömrəli, 10303018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 57, ev 48-də yaşayan Məmmədova Mənsumə Məhərrəm qızının adına olan 5384 inventar nömrəli texniki pasport və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 17.04.2009-cu il tarixdə verilmiş 0012038 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Hüseynov Hüseyn İmamalı oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 292